*Elmi Tədqiqat* Beynəlxalq Elmi Jurnal. 2024 / Cild: 4 Sayı: 10 / 53-56
*Scientific Research* International Scientific Journal. 2024 / Volume: 4 Issue: 10 / 53-56 e-ISSN: 2789-6919

https://doi.org/10.36719/2789-6919/38/53-56

**Fidan Allahverdiyeva**
Azərbaycan Dillər Universiteti
allahverdiyevaf98@gmail.com
https://orcid.org/0000-0001-6077-8432

# Multikultural dəyərlərin inkişafında medianın rolu

## Xülasə

Multikulturalizm müxtəlif etnik, dini və mədəni qrupların bir arada yaşadığı və qarşılıqlı anlaşma və hörmətin vacib olduğu cəmiyyətlərdə geniş yayılmış bir anlayışdır. Medianın bu çərçivədə rolu isə cəmiyyətlər arasında əlaqələrin möhkəmləndirilməsi və müxtəlif mədəniyyətlər arasındakı dialoqun inkişaf etdirilməsi kimi mühüm aspektləri əhatə edir.

Məqalədə ilk növbədə medianın əsas funksiyalarından biri kimi məlumatlandırma və maariflәndirmə funksiyası vurğulanır. Media cəmiyyətə müxtəlif mədəniyyətlər, onların tarixi, ənənələri, adətləri və dəyərləri barədə geniş məlumat verir. Bu isə insanların müxtəlif mədəniyyətlərə daha dərin və obyektiv yanaşmalarına, anlaşılmazlıq və stereotiplərin aradan qaldırılmasına şərait yaradır. Medianın doğru və balanslı məlumat verməsi, fərqli xalqların və qrupların mədəni irslərinin qorunmasına və təbliğinə töhfə verə bilər.

İkinci əsas məqam medianın sosial məsuliyyətidir. Multikultural cəmiyyətlərdə medianın rolu təkcə məlumat ötürməklə məhdudlaşmır, eyni zamanda medianın yaratdığı məzmunun müxtəlif qruplar arasında qarşılıqlı anlaşmaya necə təsir etdiyi də əhəmiyyət kəsb edir. Bu baxımdan, media düzgün və etik qaydalar çərçivəsində fəaliyyət göstərməli, ayrı-seçkiliyin, nifrətin və ya təfriqənin yayılmasının qarşısını almalıdır.

Daha sonra, məqalədə medianın müsbət tərəfləri ilə yanaşı, mənfi təsirləri də qeyd olunur. Bəzi hallarda media orqanları multikultural cəmiyyətlərdə mövcud olan mədəni və dini fərqliliklərə diqqətsiz yanaşaraq, qütbləşmə və qarşıdurmaların yaranmasına səbəb ola bilər. Xüsusilə, sensasiya və ya yanlış məlumat yayılması, cəmiyyətdəki incə balansı poza bilər. Buna görə də media qurumlarının peşəkar və obyektiv informasiya təqdim etmələri, etik prinsipləri rəhbər tutmaları vacibdir.

***Açar sözlər:*** *multikulturalizm, media, mədəniyyətlərarası dialoq, tolerantlıq, mədəni müxtəliflik, informasiya mənbəyi*

**Fidan Allahverdiyeva**
Azerbaijan University of Languages
allahverdiyevaf98@gmail.com
https://orcid.org/0000-0001-6077-8432

# The Role of the Media in the Development of Multicultural Values

## Abstract

Multiculturalism is a widespread concept in societies where different ethnic, religious and cultural groups live together and where mutual understanding and respect are important. The role of media in this framework includes important aspects such as strengthening relations between societies and developing dialogue between different cultures.

The article first emphasizes the function of informing and educating as one of the main functions of the media. Media provides society with wide information about different cultures, their history, traditions, customs and values. This creates conditions for people to approach different cultures more deeply and objectively, and to eliminate misunderstandings and stereotypes. Accurate and balanced reporting by the media can contribute to the preservation and promotion of the cultural heritage of different peoples and groups.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The second main point is the social responsibility of the media. In multicultural societies, the role of the media is not limited to transmitting information, but also how the content created by the media affects mutual understanding between different groups. In this regard, the media must operate within the framework of correct and ethical rules and prevent the spread of discrimination, hatred or division.

Later, the article mentions the positive and negative effects of the media. In some cases, the media may ignore the cultural and religious differences that exist in multicultural societies, leading to polarization and conflict. In particular, the spread of sensationalism or misinformation can upset the delicate balance in society. Therefore, it is important for media organizations to present professional and objective information and be guided by ethical principles.

***Key words:*** *multiculturalism, media, intercultural dialogue, tolerance, cultural diversity, information source*

## Giriş

Multikulturalizmin yaşam tərzi kimi beynəlxalq əhəmiyyəti müasir dünyamızda son dərəcə həyati əhəmiyyət kəsb etməkdədir. Bu gün artıq daha çox ölkələr, xalqlar, müxtəlif beynəlxalq qurumlar, dini təsisatlar, insanlar dərk edirlər ki, kütləvi qırğın silahlarının durmadan artdığı, dövri olaraq baş verən iqtisadi, maliyyə böhranı şəraitində mövcud olmaq, inkişaf etmək, sosial rifahı təmin etmək üçün yeganə yol əməkdaşlıqdır, mədəniyyətlərarası dialoqdur. Bu amillərin də təməli multikulturalizmə nail olmaq, onu yaşam tərzinə çevirmək ilə qoyulur. Hər hansı bir dövlətin multi-etnik və çoxkonfessiyalı bir cəmiyyətə sahib olması onun uğurudurmu, yoxsa gələcək mövcudluğu üçün bir təhlükədirmi? Bir çox mədəniyyəti özündə birləşdirən cəmiyyəti idarə etmənin ideal forması nədir? Niyə mədəni identiklik son dövrlərdə bu qədər aktual olmağa başladı? Multikultural dəyərlərin inkişafında medianın rolunun əhəmiyyəti nə qədərdir? Bütün bu suallar dövlət idarəçiliyi sahəsində son 40-50 ildə kəskin müzakirə olunan mövzulardır.

## Tədqiqat

Multikulturalizm sözün hərfi mənasında “çoxmədəniyyətlilik” anlamına gəlir. Multikulturalizm siyasəti dedikdə isə bir dövlətin sərhədləri çərçivəsində müxtəlif mədəniyyətlərin qorunması, inkişafı və təbliğinə yönəlmiş humanist və demokratik dövlət siyasəti nəzərdə tutulur (Zeynalov, 2019: 12).

Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Ən əsası suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıdan tələb olunan bu amalın- azərbaycançılığın təbliğində mətbuatın üzərinə böyük məsuliyyət düşür. Milli ideyanın formalaşması, millətin məqsədyönlülüyünün dəstəklənməsi iqtisadi uğurlarımızın əsasını təşkil etməklə soydaşlarımızın birlik və həmrəyliyi üçün də başlıca amildir. Hazırkı dövrdə dünyada hərbi-siyasi münaqişələrin artdığı bir zamanda Azərbaycanın sabitlik diyarı kimi tanınması, dünya birliyində özünə layiqli yer tutması, ölkəmizin tolerantlıq və multikulturalizm sahəsində qazandığı nailiyyətlərin təbliğ olunması milli həmrəylik və birliyimiz nəticəsində mümkün olmuşdur. (Abdullayev, 2015: 10).

Dövlət siyasətimizin əsasında dayanan azərbaycançılığın, milli dəyərlərimizdən olan multikulturalizmin inkişafı istiqamətində davamlı addımların ictimaiyyətə çatdırılması aktuallığını bütün dövrlərdə qoruyur. Məhz bu baxımdan bütün gerçəkliklərin bələdçisi olan mətbuata diqqət və qayğı dövlət siyasətinin əsasında dayanıb. Belə ki, mətbuatın dünya təcrübəsindən bəhrələnməsi, xüsusilə KİV-lərin maddi-texniki imkanlarının yaxşılaşdırılması, jurnalistlərin peşəkarlığının artırılması və hüquqlarının qorunması üçün bütün zəruri addımlar atılmış və tədbirlər həyata keçirilmişdir (Rəhimzadə, 2017: 181).

Dünya informasiya məkanına sürətlə inteqrasiya edən mətbuatımız əsas prinsipləri- dövlətçiliyi, azərbaycançılığı, vətənpərvərliyi, milli şüuru öndə saxlayaraq uğurlarımızı beynəlxalq ictimaiyyətə çatdırmalıdır. Azərbaycanın ev sahibliyi etdiyi hər bir tədbir uğurlarımızın təqdimatı, qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmaq üçün səylərin birləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir (Rəhimzadə, 2016).

Bu gün İKT-nin inkişafı Azərbaycan həqiqətlərinin yayılması, təbliğ edilməsi və ölkə daxilində də bu barədə geniş maarifləndirmə işinin aparılması baxımından böyük imkanlar yaradıb. Bununla belə, İKT-nin inkişaf etdirilməsi kontekstində bu baxımdan bir sıra məqamlara diqqət yetirməyə və İKT-də bu baxımdan düzgün iştirakçılığa nail olmağa dəyər. Gənclərin yeni media vasitələrində çıxışında, onların müxtəlif texniki hazırlıqlarından tutmuş, həmin texniki bacarıqlardan yararlanmaqla ideoloji və taktiki bilgilərini artırmaq da mühüm yer tutur. Bu baxımdan yeni mediada və internetdə Azərbaycandakı mədəni müxtəliflik və multikultural mühitin qorunması, təbliği ilə bağlı cavabdehlik şüurunun formalaşdırılmasına, inkişaf etdirilməsinə yardım etmiş olarıq. Xüsusən də ölkəmizdə media və söz azadlığı fonunda internet çox böyük sürətlə inkişaf edir, əhalinin 71 faizindən çoxu internetə birbaşa çıxış imkanına malikdir. Amma bu gün yeni media vasitələrində - sosial şəbəkələrdə və saytlarda çıxış edərkən, gənclərin böyük qismi Azərbaycanın ənənəvi dəyərləri, tolerant və multikultural mühiti ilə bağlı ciddi məlumat qıtlığı çəkir (Ağayev, 2016: 11).

Azərbaycanda yaşayan hər hansı bir azsaylı xalqın öz media orqanını təsis etməkdə maliyyə çətinliyi istisna olmaqla, başqa problemi yoxdur. Bu cür KİV-lər əsasən, təşkilatlara məxsus olur, bütün etnik təşkilatlar isə cəmiyyət formasındadır. Təəssüf ki, KİV təsis etmək istəyən təşkilatlar da kifayət qədər maliyyə vəsaitinə malik olmurlar və yaxud da media orqanı təsis etməkdə maraqlı deyillər. Ölkədə azsaylı xalqların sıxışdırılması və ya hüquqlarının pozulması kimi hallardan isə söhbət gedə bilməz (Sarıyeva, 2016: 15).

Dildən müstəqil istifadə, dini tolerantlıq və digər bu kimi cəhətlər Azərbaycan xalqının müsbət şəkildə seçilməsinə və dünyada müsbət imicinin formalaşmasına səbəb olur. Azsaylı xalqların dil və mədəniyyətlərinin, ictimai birliklərinin, eləcə də mətbu orqanlarının fəaliyyətinə dövlət qayğısı olmazsa, həmin institutların və təsisatların mövcudluğu sual altına düşər. Bu, şübhəsiz ki, yaxşı heç nə vəd etmir. Ona görə də biz, bir millət olaraq öz tarixi köklərimizə hörmət göstərməklə yanaşı, tarixi keçmişimizə də eyni münasibəti nümayiş etdirməyi bacarmalıyıq (Niftiyev, 2019).

Azərbaycan dövləti milli azlıqlara azad mətbuat yaratmaqda heç bir maneə yaratmır. Birbaşa dövlət orqanı olan rəsmi qəzetlərdə milli azlıqların məişəti, adət-ənənələri haqqında materiallar çap olunur.

Azərbaycan mediasında istedadlı jurnalistlər və rejissorlar tərəfindən hazırlanan verilişlərdə milli azlıqların, azsaylı xalqların və etnik qrupların tarixi, adət-ənənəsi, dini, dili, mədəniyyəti, folkloru, mətbəxi haqqında məlumatlar geniş əksini tapır. Azərbaycanın etnik xəritəsində xüsusi yeri olan və ölkəmizin şimal bölgəsində yaşayan ləzgilər, tatlar, cənub bölgəsində yaşayan talışlar, etnik rəngarəngliyinə görə fərqlənən Zaqatala və Qax rayonlarında yaşayan avarlar, ingiloylar, axaxlar, Azərbaycanın Qafqaz dilləri ailəsinin ləzgi qrupuna daxil olan saxurlar, Qəbələ rayonunda yaşayan udinlər, əsrlər boyu Azərbaycan xalqı ilə qardaşlıq və dostluq şəraitində yaşayan dağ yəhudiləri, XX yüzillikdə ağır məhrumiyyətlərlə qarşılaşan, bir neçə dəfə deportasiyaya məruz qalan vətən, yurd sevgisi ilə yaşayan Axıska türkləri, ölkəmizdə yaşayan milli azlıqların nümayəndələrindən olan ruslar, ukraynalılar, polyaklar, almanlar, gürcülər, tatarlar, eləcə də taleyini əbədi olaraq yurdumuza bağlayan digər xalqlar haqqında hazırlanan verilişlər, təkcə, həmin xalqların nümayəndələri tərəfindən deyil, bütövlükdə, Azərbaycan cəmiyyəti tərəfindən də çox maraqla qarşılanır.

Azərbaycanda milli azlıqların dillərinin qorunmasında, millətlərarası dözümlülüyün yaradılmasında informasiya vasitələrinə böyük rol ayrılmışdır. Milli azlıqların kompakt yaşadığı bölgələrdə yerli televiziya kanalları fəaliyyət göstərir və dövlət büdcəsi ilə maliyyələşən müntəzəm radio verilişləri yayımlanır (avar, gürcü, kürd, ləzgi, rus, erməni, talış və s. dillərdə). Eyni zamanda, həmin dillərdə qəzet və jurnallar nəşr edilir. Azərbaycan dövləti heç bir fərq qoymadan milli azlıqların mətbuat sahəsindəki fəaliyyətinin ardıcıl və davamlı olaraq inkişaf etdirilməsi üçün bütün lazımı tədbirləri həyata keçirir (https://multiculturalism.preslib.az/az_a7.html).

## Nəticə

Fərqli mədəniyyətlər arasında anlaşmanın gücləndirilməsi, müxtəlifliklərin dəyərləndirilməsi və tolerantlıq mühitinin təşviqi medianın düzgün və balanslı yanaşmasından asılıdır. Media mədəniyyətlərarası dialoqu dəstəkləməklə, cəmiyyətin inkişafına və harmoniya qurulmasına töhfə verir. Bununla belə, medianın məqsədli və etik yanaşması vacibdir ki, multikulturalizm prinsipləri

düzgün təbliğ edilsin və cəmiyyətlər arasında birlik möhkəmlənsin. Bu baxımdan, media platformalarının obyektiv informasiya yaymaqla yanaşı, maarifləndirici və mədəniyyətlərarası körpülər qurmaq rolu cəmiyyətin davamlı inkişafı üçün həyati əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Abdullayev, M. (2015). Qlobal media və tolerantlıq. *Xalq qəzeti*,1 iyul.- №139. s. 10.
2. Ağayev, İ. (2016). İKT-nin inkişafı fonunda yeni mediada multikulturalizmin təbliği önəmlidir. *Palitra*. 6 iyul. s. 11.
3. Niftiyev, N. (2019). Multikultural mediada mədəni müxtəliflik. I yazı. 06.08.2019.
4. Rəhimzadə, V. (2016). Multikultural dəyərlərin qorunmasında və təbliğində mətbuatın rolu. *Siyasət*. 14.05.2016.
5. Rəhimzadə, V. (2017). Azərbaycançılıq ideologiyasının təbliği və təşviqində medianın rolu. *Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə*.- № 4. s. 181-186.
6. Sarıyeva, İ. (2016). Azərbaycanda multikulturalizm siyasətinin prinsipləri və azərbaycançılıq... II yazı. *Bakı xəbər*. 21 oktyabr. s.15.
7. Zeynalov, M. (2019). Multikulturalizm siyasətinin prinsipləri və Azərbaycan. *Hürriyyət*. 26-27 noyabr. s.12.
8. https://multiculturalism.preslib.az/az_a7.html

Daxil oldu: 25.08.2024
Baxışa göndərildi: 07.09.2024
Təsdiq edildi: 04.10.2024
Çap olundu: 30.10.2024